## Seçkilərdən-seçkilərə

# Qəbələ inkişaf edir və yeniləşir

Seçkilər hər bir ölkənin həyatında siyasi əhəmiyyət kəsb edən hadisədir. Eyni zamanda bu mühüm hadisə vətəndaşların dövlətin ətrafında sıx birləşməsindən və ictimai həyatın idarə olunmasında yüksək səviyyədə iştirak etməsindən xəbər verir.



1993-cü ildən bəri ölkəmizdə 5 prezident, 4 parlament və 4 bələdiyyə seçkiləri keçirilib. Bu seçkilərin hamısı xalqın iradəsinə uyğun olaraq demokratik, ədalətli və şəffaf keçirilmişdir. Ölkəmiz növbəti mühüm siyasi hadisə-parlament seçkiləri ərəfəsindədir. Bu il noyabrın 1-də beşinci çağırış Milli Məclisə seçkilər keçiriləcək. Xeyli vaxtdır ki, bu mühüm siyasi kampaniyanın normal keçirilməsinə seçki dairələrində və seçki məntəqələrində hazırlıq işlərinə start verilib. Qəbələdə də seçki hazırlığının ən yüksək səviyyədə həyata keçirildiyini qeyd etmək olar.

Son parlament seçkilərindən sonra respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkənin bütün bölgələri kimi Qəbələ rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək səviyyədə davam etdirilir. Son illərin real nəticələri Qəbələnin ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu bir daha təsdiq edir. Məhz bu inkişaf və quruculuq ölkəmizdən çox-çox kənarda da Qəbələni tanıtmışdır. Prezident cənab İlham Əliyevin birbaşa təşəbbüsü və həyata keçirdiyi uğurlu siyasəti sayəsində son illər rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, istehsal və qeyri istehsal xarakterli möhtəşəm tikililərin təməli qoyulmuş və yüksək keyfiyyətlə başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən əsaslı təmir edilən səhiyyə və təhsil müəssisələri, yollar, parklar, körpülər, inzibati binalar, mədəniyyət mərkəzi Qəbələnin simasını tamamilə dəyişdirib yeniləşdirmişdir. Bu dövrdə həm dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Çox sevindirici və təqdirəlayiq haldır ki, rayonumuzda regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ardıcıl və uğurla icra olunur. Son illər dövlət proqramlarında nəzərdə tutulmuş sosial yönümlü problemlərinin həlli ilə əlaqədar rayonun qəsəbə və kəndlərinə qaz kəmərlərinin çəkilməsi, yeni yaşayış massivlərinin qazlaşdırılması, daşıyıcı qaz kəmərlərinin polletilen borularla əvəzlənməsi, elektrik enerji sisteminin yaxşılaşdırılması məqsədilə görülən işlər əhali tərəfindən razılıqla qarşılanmışdır.

Hazırda rayon mərkəzində «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası ilə əlaqədar məhkəmə, prokurorluq orqanları, «Asan» xidməti, Yeni Azərbaycan Partiyası rayon təşkilatı, kənd təsərrüfatı idarəsi üçün yeni inzibati binalar, 100 nəfərlik uşaq bağçası, Zarağan kəndində hərbi xidmətə çağırış məntəqəsi tikilir. Sadalanan binaların bəzilərində son tamamlama işləri gedir. Cəmi beş ilin ərzində Qəbələ şəhərində onlarla yeni inzibati və hündürmərtəbəli yaşayış binaları inşa olunaraq istifadəyə verilmişdir. Şəhərin küçə, park və xiyabanlarında göz oxşayan dayaqlar üzərində quraşdırılmış yaraşıqlı gecə işıqları, ictimai binaların, fərdi evlərin, xidmət obyektlərinin, həyət divarlarının fəsadlarının milli ornamentlər və müasir üzlük materialları ilə işlənməsi, şəhərin ümumi mənzərəsinə xüsusi gözəllik verir. Son beş ilin ən əlamətdar hadisələrdən biri də odur ki, Qəbələdə Beynəlxalq Hava Limanı tikilərək istifadəyə verilmişdir. İndi bu hava limanı dünyanın bir neçə şəhərinə gedən sərnişinlərə nümunəvi xidmət göstərir.



Rayonun qəsəbə və kəndlərində də aparılan tikinti, abadlıq, yenidənqurma işləri geniş miqyas almışdır. Bu baxımdan Vəndam, Bum, Nic qəsəbələrində, Zarağan, Hacıalılı, Soltannuxa kəndlərində aparılan quruculuq işləri xüsusilə diqqəti cəlb edir. Yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili və kəndarası yolların bərpası və yenidən qurulması işləri də davam etdirilmişdir. Bu sahədə Mirzəbəyli, Çuxur Qəbələ, Dizaxlı və Çarxana yolunda görülən yenidənqurma işləri və həmin ərazilərdən keçən çayların üzərində quraşdırılmış körpülər cənab Prezident İlham Əliyevin tapşırığına əsasən reallaşmışdır.

Qəbələ rayonu hazırda turizm diyarı kimi respublikamızın hüdudlarından çox-çox uzaq ölkələrdə şöhrət qazanıb. Qəbələ həm ölkə, həm də beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir.

Qəbələ həmçinin respublika üzrə ən yüksək səviyyədə inkişaf etmiş, kənd təsərrüfatı rayonu kimi tanınır. Son illərdə burada sənayenin dinamik inkişafı ilə yanaşı, rayon üçün ənənəvi olan kənd təsərrüfatı sahəsində də canlanma daha çox hiss olunmaqdadır. Rayonun qəsəbə və kəndlərində yaşayan əhalinin əsas məşğuliyyəti olan heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi «Kənd təsərrüfatı ili» olan 2015-ci ilin ötən dövründə xeyli artmışdır. Son statistik rəqəmlərə əsasən heyvandarlıq məhsulları istehsalının həcmi də 2015-ci il ərzində xeyli artmışdır. İribuynuzlu mal-qaranın sayı 48.270 başa, davarların sayı 218.540 başa, donuzların sayı 1.042 başa çatdırılmışdır. Ötən 6 ay ərzində 2.573 ton ət, 17.907 ton süd, 310 ton yun, 5 milyon 912 min ədəd yumurta istehsal olunmuşdur. Sahibkarlığa yaradılan dövlət dəstəyinin nəticəsidir ki, rayonda əhalinin ət, süd və yumurta məhsullarına olan ehtiyacını ödəmək məqsədilə broyler quşçuluq kompleksi, eyni zamanda 2 iri heyvandarlıq kompleksi tikilib istifadəyə verilmişdir. Bu komplekslər fəaliyyətə başlayandan sonra əhalinin süd, ət və yumurta məhsullarına olan tələbatının ödənilməsində müsbət dəyişikliklər baş vermişdir. 21.300 hektar əkin sahəsindən 64.645 ton arpa və buğda toplanmışdır. Rayonda heyvandarlıq və taxılçılıqla yanaşı kartofçuluq, üzümçülük, meyvəçilik, tərəvəzçilik də inkişaf edir, əhali bu məhsullara olan ehtiyaclarını daxili imkanlar hesabına ödəyir.

Bütövlükdə, rayonun iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, orada yüksəliş əldə edilməsin.

Qəbələ rayonu həm də siyasi fəallığı, ölkə miqyaslı siyasi proseslərdə sakinlərinin mütəşəkkil iştirakı ilə diqqəti cəlb edir. İstər Prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri bu rayonda həmişə yüksək səviyyədə baş tutmuş və indiyədək heç bir seçkidə qanun pozuntusu qeydə alınmamışdır. Rayonu əhatə edən seçki məntəqələri üzrə seçkilərdə fəal iştirak edən seçicilər hər zaman layiqli namizədləri dəstəkləmişlər. Milli Məclisə keçiriləcək seçkilərin yüksək səviyyədə keçməsinə hər cür əsas vardır.

**Aslan Cəlilov.**